# Saplarda həkk olunan gözəllik

***B**aşqa sözlə, təsviri sənətin ilkin nümunələri insanın onu əhatə edən ətraf aləmi dərk etmək arzusuyla bağlı olmuş, yalnız zaman ötdükcə təsvir dünyanın estetik dərki kateqoriyasına keçmişdir. Tikmə sənəti Azərbaycan xalqına xas olan gözəllik hissinin, harmoniya və gözəllik duyğusunun əyani nümunəsidir. Bu keyfiyyətlər xalqımıza əsrlər boyu tərbiyə edilmiş və nəsildən-nəsilə ötürülmüşdür. Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar göstərir ki, burada toxuculuq sənəti neolit dövründə meydana gəlmişdir. Belə ki, heyvandarlığın inkişafı məhz həmin dövrdə başlanmışdır. Azərbaycan ərazisində tapılmış ən qədim parça nümunələri eramızdan əvvəl birinci minilliyə aiddir. Parça malik olduğu fakturaya görə uzun əsrlər boyu qoruna bilmədiyindən ilk dəfə nə vaxt tikmənin bu və ya digər növü ilə bəzədilməsi haqqında fikir söyləmək çətindir. Bu səbəbdən, tikmə haqqında "ilk" məlumatlar V-VI əsrlərə aid edilir. Mingəçevirin həmin dövrə aid katakomba qəbirlərində güləbətin tikmənin izləri olan ipək parçanın fraqmentləri tapılmışdır.*

Belə bir fakt maraq doğurur ki, bədii tikmə öz yaranışından kustar və peşəkar sənətlərə bölünmüşdür. Kustar tikmə bizim əcdadlarımızın mentalitetini, adətlərini, qayda və qanunlarını əks etdirmiş sadə insanın əsrlər boyu topladığı daxili "Mən"inin zənginliyinin ifadəsinə çevrilmişdir. Beləliklə, daha sabit və ənənəvi olan kustar tikmə müstəqil yaşamış və öz axarı ilə inkişaf etmişdir. Peşəkar tikmə isə müəyyən dövrü səciyyələndirir, hökmdar saraylarında fəaliyyət göstərən xüsusi emalatxanalarında yaranır və hakimiyyətin güclülüyü ideyasını, onun şahanə zənginliyini və ideoloji aspektlərini əks etdirirdi. Bunu eyni dövrə, lakin müxtəlif səviyyələrə məxsus tikmələrin ornament tərkibi də təsdiq edir. Qədim kustar tikmələrin ornament tərkibi kodlaşdırılmış rəmzlər vasitəsi ilə dünyanın yaranışı haqqında insanın başlıca təsəvvürlərini ifadə edirdi. Bunlar dərin semantik məna daşıyan və yer üzündə həyatla ölümün mənzərəsini yaradan dalğavari xətlərdən, dairə, nöqtə və həndəsi fiqurlardan, səmavi motivlərdən, həyat ağacından, zoomorf təsvirlərdən və s. ibarət olurdu. Ən qədim ornamentləri piktoqrafik yazılarla, məmulatları isə qədim insanın fəlsəfəsini, həyat tərzini, maraqlarını və s. xüsusiyyətlərini açıqlayan oxunmuş kitablarla müqayisə etmək olar ki, bu da müasir tədqiqatçılara həmin dövrü səciyyələndirmək imkanı verir. İlkin Orta əsrlərin peşəkar tikmə sənəti isə saray həyatından, folklordan götürü-



***Bədii tikmə - xalqın özünəməxsus siması olub, onun bənzərsiz mədəniyyətini, fəlsəfəsini, dünyagörüşünü, eləcə də onun zövqünü və gözəllik duyğusunu əks etdirir. Ən qədim sənət növlərindən olan bədii tikmə təkcə milli geyimləri və məişət əşyalarını bəzəməyib, həm də sadədən mürəkkəbə evolüsiya edən ornament sənətinin inkişaf tendensiyalarını müəyyən etmişdir.***

lən səhnələri, ov səhnələri, çoxsaylı zoomorf, həmçinin hakimiyyətin gücünün rəmzi olan nağıl varlıqlarını və s. illüstrə edən süjetli təsvirlərlə xarakterizə olunur. Eyni halı İran Sasanilər dövründən qalmış parça və tikmə nümunələrində də qeyd etmək lazımdır. Bu nümunələr də peşəkar sənətin imperiya səviyyəsini nümayiş etdirir və bir neçə əsrdən sonra – XVI əsrdə Təbriz dekorativ-tətbiqi sənətində, xüsusən də həmin dövr parçalarının kompozisiya və ornament sxemlərində yeni qüvvə ilə üzə çıxır. Eyni zamanda, Alban dövlətinin ərazisində aparılmış arxeoloji qazıntılarda da üzərində rəngli yun saplarla işlənmiş sadə tikmələri olan kobud parçalar aşkar edilmişdir. Ornament tərkibi dalğavari xətlərdən, nöqtə, dairə, üçbucaqlardan və s. ibarət olan bu tikmələr özündə həmin dövrün keramikasında geniş istifadə olunan qədim çoxallahlı mədəniyyətin ornamental dilini əks etdirirdi.

Azərbaycan incəsənətinin inkişafında növbəti mərhələ təkallahlılığa inamı təlqin edən islam dininin yayılması ilə başlanır. İslam dini gəlişi ilə bədii dilin özündən əvvəlki bütün formalarını dağıtdı və özünün həddən artıq mürəkkəb, qrafik, ciddi riyazi məntiqə əsaslanan ornament dilini və kolliqrafik yazısını yaratdı ki, bu da incəsənətin bütün növlərinə sirayət etdi.

Əsas kompozisiya quruluşlarının və ornamental motivlərin yaradıcıları Şərqdə ən müqəddəs kitabı tərtib edən peşəkar ornamentçi rəssamlar idilər. Bütün bu kompozisiya üsulları və bəzəmə yolları isə zəngin tərtibatlı kitablardan memarlıq abidələrinə, keramikaya, zərgərlik məmulatlarına, xalça və parçalara keçdi.

İncəsənətin bütün növlərinin yüksəlişi dövrü XVI əsrin əvvəllərinə - Azərbaycan ərazisində paytaxtı Təbriz şəhəri olan güclü mərkəzləşmiş Səfəvilər dövlətinin yarandığı dövrə düşür. Əsrlər boyu inkişaf yolu keçən və özünün ən parlaq dövrünə XVI əsrdə çatan, Yaxın və Orta Şərq müsəlman ölkələrinin saray incəsənətinin etalonuna çevrilən, dövrün üslubunu müəyyənləşdirən bədii dilin yetkinləşməsi də bu dövrə aid edilir. Stilizə edilmiş bitki və gül naxışları, rəsmin zərifliyi, xətlərin yumşaqlığı və axıcılığı, kompozisiya həllinin rəngarəngliyi, koloritin ahəngdarlığı, süjetlərin lirik təfsiri həmin yeni üslubun əlamətləri idi. Bu dövr toxuculuq peşəsinin və tikmə sənətinin xüsusi çiçəklənməsi ilə səciyyələnir. O dövrün səyahətçilərindən, tacir və diplomatlarından çoxlu məlumatlar qalmışdır ki, burada onlar güləbətin tikmələrlə və qiymətli daş-qaşlarla bəzədilmiş bahalı ipək parçadan paltarlar geyinmiş Səfəvi hökmdarlarının Şərqə məxsus zənginliyinə heyranlıqlarını bildirirlər. Təbrizdə istehsal edilən, üzəri qızılı və gümüşü saplarla bəzədilən bu süjetli bahalı parçalar xaricə ixrac edilən ən əsas mallardan və Avropa və Asiya hökmdarlarına göndərilən ən qiymətli hədiyyələrdən idi.

Bədii tikmə sənətini tədqiq etmək üçün həmçinin, Təbriz miniatürləri də zəngin materiala malikdir. Bu əsərlərdə rəssamlar tikmənin çoxlu növlərini, onların paltarlarda və məişət əşyalarında yerini, ornament və kompozisiya quruluşunu, rəng həllini miniatür sənətinə məxsus incəliklərlə əks etdirmişlər.

Tarixi sənədlər təsdiq edir ki, Azərbaycanda ən geniş yayılmış tikmə növləri güləbətin, təkəlduz, qurama, qiymətli daşlarla və muncuqla tikmə olmuşdur.

Güləbətin tikmə qalın parçalar üzərində əsasən, həmahəng tünd rəngli məxmər və mahud üzərində işlənirdi. Məxmər parça üzərində işlənən güləbətin xüsusən gözəl baxılırdı. Məxmər parçanın xovlu səthi qızılı və gümüşü sapların parıltısına xüsusi gözəl çalarlar verirdi. Güləbətin tikmə ilə geyimlər, məişət əşyaları, hər cürə üzlüklər, pul kisələri, kiçik qutular və s. bəzədilirdi. Təbriz, Şamaxı, Bakı, Naxçıvan, Gəncə kimi böyük şəhərlər güləbətin tikmə istehsalının mərkəzləri idi. Qeyd etmək lazımdır ki, Səfəvi şahlarının saraylarında ayrıca karxanalar-emalatxanalar fəaliyyət göstərirdi. Belə karxanalarda peşəkar ustalar rəssamların eskizləri əsasında yüksək cəmiyyət nümayəndələri və xaricə ixrac etmək üçün qızılı və gümüşü saplardan müxtəlif məmulatlar tikirdilər. Bu tikmələrin başlıca ornament motivini stilizə olunmuş nəbati və həndəsi naxışlar təşkil edirdi. Belə motivlərdən olan, hər iki tərəfində bir cüt quş oturmuş həyat ağacı ən qədim motivlərdən idi ki, bu da ilkin dövrlərdə həyat və ölüm, gecə və gündüzün dəyişməsi, xeyir və şərin mübarizəsi kimi məfhumların rəmzi olmuşdur. Bunun üçün personajlardan biri - istər quş olsun, istərsə də heyvan təsviri tünd boya ilə, digəri isə açıq boya ilə rənglənirdi. Lakin zaman keçdikcə semantika dekorativliklə əvəzlənmiş və bu motivə tamamilə başqa təfsir verilmişdir.

Zənginliyi və təmtəraqı ilə par-par yanan, qızıl və gümüşü ilə ağıl çaşdıran, yaqut və mirvariləri ilə göz qamaşdıran saray incəsənətinin çiçəklənməsi ilə yanaşı, öz sadəliyi və sxematikliyi ilə seçilən, lakin eyni zamanda köklərini əsrlərin arxasından, qədim mədəniyyət və ənənələrdən götürən möhtəşəm bədii dilə malik xalq sənəti də inkişaf etmişdi. XVII əsrdən qalmış ABŞ-nin muzey və şəxsi kolleksiyalarında qorunan bədii tikmə nümunələri köçəri xalqın incəsənətini əyani nümayiş etdirir. Burada bəzək elementinin öz kodlaşmış mənası var ki, həmin

məna da motivlərə, rəng həllinə və hər məmulatın təyinatına uyğun olaraq açılır. XVII əsrin ortalarına və XVIII əsrin əvvəllərinə məxsus bədii tikmələr ortasında rombvari medalyon, künclərində isə S-şəkilli qarmaqvari elementləri olan təkmedalyonlu oxşar kompozisiya quruluşuna malikdirlər. XVIII əsrə məxsus medalyonun ortasını üzərində buynuzabənzər elementlər olan, daxilində svastika yerləşdirilmiş formaca daha kiçik medalyon bəzəyir. Azərbaycan incəsənətinin zəngin xəzinəsinə məxsus olan bütün bu elementlər öz köklərini çox qədim dövrlərdən alır. Romb bir çox anlayışları özündə təcəssum etdirən ən qədim ornament rəmzlərindəndir. Həmçinin buynuza da köçəri xalqların dekorativ sənətində tez-tez rast gəlinir ki, bu da onların totem inamları ilə bağlıdır. Svastika dünyanın dörd tərəfinin, təbiətin dörd ünsürünün (od, su, hava, torpaq) ən qədim rəmzlərindən biridir. Qanadlı svastika isə yer üzündə həyatın və təbiətin fasiləsiz dövran etdiyinin rəmzidir. Kompozisiyanın bacaqlarını stilizə edilmiş gül motivləri çələng kimi bəzəyir ki, bu da yəqin, həyat ağacını təcəssüm etdirir. Medalyonun orta hissəsi bir neçə gülün dalğavari həndəsiləşdirilmiş xətti ilə bəzədilən nazik haşiyə ilə əhatələnmişdir. Tikmə rənglərin səslənməsindən istifadə edilmiş xalçaları xatırladır. Burada rəng həlli tünd göy rəngli fonun qırmızı fonlu sarı medalyonla və yaşıl, ağ, göy elementlərlə həmahəngliyi üzərində qurulmuşdur.

Orta əsrlərdə Azərbaycanda kifayət qədər geniş yayılmış tikmə texnikalardan biri də təkəlduz tikmə idi. Təkəlduz tikmə qalın parçalar üzərində, əsasən, qırmızı, qara, tünd göy rəngli mahud üzərində, rəngli ipək və yun saplarla işlənirdi. Təkəlduz tikmənin fonu üçün təkcə birrəngli parçalardan istifadə olunurdu. Bunun üçün dolğun, tünd rənglərin həmahəngliyindən istifadə olunurdu ki, bu da tikmənin sahəsini dolduran rəngarəng ornamentlərlə çox gözəl harmoniya yaradırdı. Təkəlduz tikmə rəng tərtibatının zənginliyi və kompozisiya həllinin müxtəlifliyi ilə fərqlənirdi. XVI əsrdə bu, əsasən nəbati və zoomorf motivləri özündə birləşdirən medalyon kompozisiyalarının müxtəlif təfsirlərində bəzən də süjetli kompozisiyalarda öz əksini tapırdı. Təkəlduz tikmənin texnikası aşağıdakı kimi idi. Parça barmaqlara tarım çəkilir və üzərində rəsmin kontur xəttləri qeyd olunurdu. Sonra xüsusi alətin-qarmağın vasitəsi ilə rəsmin içərisi doldurulurdu. Təkəlduz tikmədən hər cür örtüklərə, balış və mütəkkə üzlüklərinə, çullara, kiçik xalçalara və süfrələrə bəzək vurmaq üçün istifadə olunurdu. XVIII əsrdə Şəkidə işlənmiş, hazırda Azərbaycan tarix muzeyində saxlanılan balış üzlükləri təkəlduz tikmə sənətinin yüksək inkişaf səviyyəsinin nümunəsi, həmçinin, Azərbaycan incəsənətinin parlaq fərdi xüsusiyyətlərinin ifadəsidir.

Muncuqla, qiymətli daş-qaşlarla, daha sonra isə əlvan metal lövhələrlə – pilə ilə tikmə texnikası Azərbaycan bədii tikmə sənətinin ənənəvi sahələrindəndir. Muncuqla daha çox geyim və ayaqqabılar, dekorativ pərdələr, örtüklər, balış üzlükləri, güzgü örtükləri, eləcə də müxtəlif kiçik əşyalar, müştüklər, qotazlar bəzədilirdi.

Qeyd etmək lazımdır ki, Azərbaycanda tikmə sənəti çox güclü ənənələrə malikdir. Tikmənin müxtəlif növləri, istər peşəkar, istərsə də kustar səviyyədə Azərbaycanın bütün bölgələrində inkişaf etmişdir. Eləcə də uzun əsrlər boyu tikmənin hər iki istiqaməti bir-birinə qarşılıqlı təsir göstərmiş və sanki bir-birinə hoparaq Azərbaycan dekorativ sənətinin vahid üslubi bazasını yaratmışlar. Bədii tikmənin Azərbaycan xalqının gündəlik həyatında oynadığı rolu qiymətləndirmək çox çətindir. Xalq tikmə sənətindən danışarkən qeyd etmək lazımdır ki, qədimdə bu işlə qadınlar və gənc qızlar məşğul olurdular. Hər bir qadın tikməyi, toxumağı və naxış vurmağı bacarmalı idi. Onlar bu sənəti nənələrindən, analarından öyrənir və öz qızlarına, nəvələrinə ötürürdülər. Beləcə, Azərbaycan qadınları nəsilbənəsil bu ənənəni davam etdirir, eyni zamanda hər biri qədim ornament motivlərinə fərqli yozum verərək bu sənəti yeni kompozisiyalarla zənginləşdirir və texniki üsulları təkmilləşdirirdi. Deyilənlərə görə, bu işi bacarmayan qızları ərə götürmürdülər. Ailədə qız uşağı dünyaya gələn kimi uşağın anası və nənəsi ona cehiz tədarükü görməyə başlayırdı. Tikilən əşyaların sayı ailənin maddi vəziyyətindən asılı olurdu. Əgər cehizdə güləbətin tikmələrin sayı çox olurdusa gəlin varlı hesab edilirdi. Kasıb ailələrdə çox vaxt ana qızına öz qalmış cehizini verərdi. Cehiz sədəflənmiş və ya naxışlanmış böyük sandığa yığılırdı ki, bu özü də cehizin ayrılmaz tərkib hissəsi sayılırdı. Kənd yerlərində cehiz üçün nəzərdə tutulan əşyaların tərkibinə müxtəlif təyinatlı xalçalar və çoxsaylı xalça məmulatları – məfrəşlər, xurcunlar, çullar, xalça örtükləri də daxil idi. Şəhər ailələrində isə xalçalarla yanaşı müxtəlif ölçülü süfrələr, pərdələr, örtüklər, balışlar, qızılı və gümüşü saplarla, muncuqlarla, pilə ilə bəzədilmiş pul kisəsi, eynək, qələm, daraq, dua kitabı, tütün saxlamaq üçün qablar və s. belə kiçik əşyalar da qızın cehizinə daxil edilirdi.

*Tikmə sənətinin ənənələri bu gün də yaşayır. Hətta yaşadığımız müasir dövrdə kütləviliyə və modaya üstünlük verilən bir dövrdə də bədii tikmə öz tükənməz ömrünü zamanla ayaqlaşaraq davam etdirməkdədir. Bu gün də həm peşəkar qadın rəssamlar, həm də xalq sənətkarları müxtəlif texnikalarda işləyir və öz nənə və ulu nənələrinin irsini davam etdirirlər. Onlar öz işlərində Azərbaycan xalqının zəngin olduğu incə zövq, ölçü hissi, harmoniya duyğusu və s. əvəzolunmaz dəyərlərini qorumağa və gələcək nəsillərə ötürməyə çalışırlar. Bir daha qeyd etmək istərdik ki, əsrlər boyu qazanılmış bədii təfəkkür formalarının bu gün də öz yaşam tarixini davam etdirməsi bir daha milli mədəniyyətimizin varisliyini və qədimliyini sübut edir.*

***Şirin MƏLİKOVA***